***FƏNLƏRARASI İNTEQRASİYA***
***МЕЖПРЕДМЕТНАЯ ИНТЕГРАЦИЯ***
***INTER-SUBJECT INTEGRATION***

*UOT 37.0*

**_Sevil Eyvaz qızı Cavadova_**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
*https://orcid.org/0009-0008-9769-3873*
https://doi.org/10.69682/azrt.2024.91(1).46-49

# FƏNLƏRARASI İNTEQRASİYANIN TƏLİM PROSESİNDƏKİ ROLU

**_Севиль Эйваз гызы Джавадова_**
*докторант по программе доктора философии*
*Институт Образования Азербайджанской Республики*

# РОЛЬ МЕЖПРЕДМЕТНОЙ ИНТЕГРАЦИИ В УЧЕБНОМ ПРОЦЕССЕ

**_Sevil Eyvaz Javadova_**
*doctorial student in the program of doctor of philosophy*
*Institute of Education of the Azerbaijan Republic*

# THE ROLE OF INTER-SUBJECT INTEGRATION IN THE EDUCATIONAL PROCESS

**Xülasə**. Məqalədə fənlərarası əlaqə təlim prinsipi araşdırılır. İnteqrasiyanın şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazının yaradılmasındakı rolu aydınlaşdırılır. Anlayışla bağlı ümumelmi anlayışlar, kateqoriyalar və yanaşmalar təsnif olunur. İnteqrasiyanın müxtəlif tip biliklərin formalaşdırılmasına təkan verdiyi qeyd olunur. Fərqli fənlərə aid oxşar və bir-birini tamamlayan mövzuların eyni müstəvidə tədrisinin şagirdlərə daha səmərəli bilik verəcəyi vurğulanır.
***Açar sözlər**: rol, fənn, dərs, təlim, əlaqə, inteqrativ*

**Резюме**. В статье исследуется принцип межпредметной связи. В сознании учащихся уточняется роль интеграции в создании целостного и неделимого образа мира. Классифицируются общие понятия, категории и подходы, связанные с пониманием. Отмечается, что интеграция способствует формированию разных типов знаний. Подчеркивается, что преподавание схожих и взаимодополняющих друг друга тем, разных предметов на одном уровне даст учащимся более комплексные знания.
***Ключевые слова**: роль, предмет, урок, обучение, связь, интегративный*

**Summary.** The article explores the principle of interdisciplinary communication. The role of integration in creating a holistic and indivisible image of the world is clarified in the minds of students. General concepts, categories and approaches related to understanding are classified. It is noted that integration contributes to the formation of different types of knowledge. It is emphasized that teaching similar and complementary topics in different subjects at the same level will give students more comprehensive knowledge.
***Key words**: role, subject, lesson, training, plan, contact, integrated*

İnteqrasiyanın tam orta təhsil pilləsində tətbiqi şagirdin daha dərin biliklər almasına zəmin yaradır. Buna şagirdlərin yaş xüsusiyyətləri, qavrama səviyyələri kömək edir. Məktəbi bitirmək üzrə olan şagird dünya haqqında artıq müxtəlif mənbələrdən - kitablardan, ətrafdakıların söhbətindən, kütləvi informasiya vasitələrindən, bir-biri ilə ünsiyyətdən əldə edilən təsəvvürə malik olurlar. İnteqrasiya müxtəlif məlumatların qarışıq şəkildə nəzərdən keçirilməsinə, kompleks öyrənilməsinə imkan yaradır.

Prof. N.M. Kazımovun fikrincə, inteqrativ dərs şagirdlərin tam müstəqilliyi və fəallığı şəraitində tədris mövzusunun şüurlu və möhkəm

mənimsənilməsinə, onların psixoloji inkişafına, habelə şəxsiyyətcə formalaşmasına maksimum yardım edir [7, s. 125].

Akad. M.M. Mehdizadə də fənlərarası əlaqələri didaktik prinsiplərə aid edir. O hesab edir ki, fənlərarası əlaqələr geniş didaktik prinsip olmaqla, hər hansı təsnifatın çərçivəsinə yerləşə bilmir. Onun fikrincə, məhz fənlərarası əlaqələr məktəblilərdə əsaslı elmi anlayışların formalaşmasına kömək edir. M.M. Mehdizadə fənlərarası əlaqələrin fəlsəfi və psixoloji əsaslarının öyrənilməsini vacib hesab edir. O, fənlərarası əlaqələrin həyata keçməsində birinci və ali pilləni ayırır. Birinci – öyrənilən nəzəriyyələr, faktlar, anlayışlar arasında əlaqənin yaradılmasıdır. Ali – əsaslı anlayışlar haqqında hərtərəfli və düzgün təsəvvürün formalaşmasıdır. M.M. Mehdizadənin bu fikirləri bu gün də öz aktuallığını itirmir [9].

Prof. Ş.A. Mikayılov, dos. A.M. Bəkirova və Ş.X. Əliyeva "Ədəbiyyat dərslərində inteqrasiyadan istifadə imkanları" adlı metodik vəsaitində qeyd edir: "*Azərbaycan ədəbiyyatında inteqrativ üsuldan istifadə bir anlayış kimi son dövrlərdə işlədilir və təlim prosesində ondan istifadə tələbi irəli sürülür. Ədəbiyyat proqramlarında "inteqrasiya" sözünə təsadüf edilmir. Lakin həmin anlayış mahiyyət etibarilə ona yaxın "fənlərarası əlaqə" adı ilə proqramda bir tələb kimi qoyulmuş, bir müddət 70-90-cı illərdə müəllimlər ondan bir prinsip kimi istifadə etmişlər*" [11, s. 8]. Dəyərli alimlərin qənaəti hələ də aktuallığını saxlayır. İnteqrasiya prinsip kimi qəbul edilsə də, dar çərçivədə istifadə edilərək *"fənlərarası əlaqə"səviyyəsinə endirilir.*

S. Xəlilov da fənlərarası əlaqələri təlim prinsipi hesab edir. "Fənlərarası əlaqələrin mahiyyətinə elmi yanaşmalar" məqaləsində fənlərarası əlaqələr barədə müəllif mövcud fikirlərin təhlilini aparır və məqalənin sonunda bu nəticəyə gəlir ki, fənlərarası əlaqələri didaktik prinsip hesab etmək üçün bütün əsaslar var. Müəllif yazır: "*Məhz buna görə əgər ənənəvi prinsiplər fənlərarası əlaqələr kimi təlimin elmi-nəzəri səviyyəsinin artırılmasına xidmət edir, o zaman onun təlim prinsipləri kateqoriyasına daxil edilməməsinin səbəbi aydın olur. Fənlərarası əlaqələrin bu kateqoriyaya daxil edilməsinin bütün əsasları vardır* " [14, s. 221]

Prof. B.A. Əhmədov başqa fikirdədir. O hesab edir ki, fənlərarası əlaqələri prinsip hesab etmək üçün əsas yoxdur. "Fənlərarası əlaqələrin didaktik şərtləri" məqaləsində Bəşir Əhmədov fənlərarası əlaqələrin prinsip olması barədə nəzəriyyəni rədd edir və çox güman ki, onların şərt (şagirdlərin dünyagörüşünün formalaşma şərti) olması, elmin, daxili sistemin, strukturun məntiqi vəhdəti prinsipinin həyata keçməsi üçün didaktik tələblərdən biri olmasını qeyd edir. "*Tələb şərt ola bilər, lakin heç vaxt prinsip səviyyəsinə qalxmayacaq*" – deyərək müəllif iddia edir [2, s. 32]

Prof. H. Əhmədovun hazırladığı "Pedaqogika" dərsliyinin "Təlim prinsipləri" başlığı altında verilmiş hissəsində təlimin inteqrativləşdirilməsi, fənlərarası əlaqələrin uçotunun aparılması orta məktəbin müasir didaktik prinsipləri sırasında verilir. Müəllifin fikrincə, təlimin bu prinsipi pedaqoji fəaliyyəti istiqamətləndirir [3, s.130].

T.M. Əliyeva da hesab edir ki, fənlərarası əlaqələri didaktik prinsip adlandırmaq düzgün deyil. Müəllif hesab edir ki, fənlərarası əlaqələr təlimin məzmununu zənginləşdirən pedaqoji metodlardan biri, metodik vasitədir və təlimin məzmununun şagirdlər tərəfindən qəbul edilməsi və onun uzun müddət yadda qalması üçün şərait yaradır. O, fənlərarası əlaqələri pedaqoji sistem kimi nəzərdən keçirir. Müəllif yazır ki, elmi anlayışlar, nəzəri müddəalar, tətbiqi xarakteri, tədqiqat metodları, həmçinin, fənnin tədrisi nəticəsində alınan biliklər, bacarıq və vərdişlər birlikdə onun sistemini təşkil edir. Buna əsaslanaraq, fənlərarası əlaqələri nəzərdən keçirməzdən əvvəl bu sistemin elementləri arasında münasibətləri öyrənmək zəruridir. Buna görə də fənlərarası əlaqələr sistemi barədə danışmaq olar [4, s. 15].

Beləliklə, biz əyani şəkildə görə bilərik ki, tədqiqatçılar təlimdə "fənlərarası əlaqələr" anlayışının öyrənilməsinə müxtəlif cür yanaşırlar. Lakin onların heç də hamısı tədris prosesində fənlərarası əlaqələrin istifadə edilməsinin vacibliyini və zəruriliyini qeyd etmirlər.

Prof. A.N. Rəhimov inteqrasiyanı fənlərarası əlaqələrin zirvəsi hesab edir. *"İnteqrasiya prosesində fənlər elə əlaqəli, elə "qarışıqdır" ki, nəyin harada başladığı və nəyin harada bitdiyi aydın deyil"* [12, s. 14]. Qeyd etmək lazımdır ki, müəllif biliklərin inteqrasiyası barədə deyil, fənlərin inteqrasiyası barədə danışır. İnteqrasiya biliklərin bütün formalarda və onun bütün ifadə növlərində vəhdətinə nail olmağın ən vacib vasitəsidir: məzmun, struktur, məntiq-qnoseoloji, elmi-təşkilati, linqvistiko-semantik,

ümumi və xüsusi metodoloji. Bunun üçün müxtəlif tədris fənlərində şagirdlərin biliklərini daim ümumiləşdirilməsi və sistemləşdirilməsi, təbiət və cəmiyyət hadisələrinin öyrənilməsinə inteqrasiya edilmiş yanaşma vərdişlərinin qazanılması, müxtəlif mənbələrdən biliklər əldə etmək bacarığını stimullaşdırılması lazımdır.

Fənlərarası əlaqədən fərqli olaraq fəndaxili əlaqə ədəbiyyatda az işlənmişdir. Bir çox tədqiqatçılar onu mövzulararası əlaqə adlandırır. Fəxrəddin Yusifov "Ədəbiyyatın tədrisi metodikası" kitabında fəndaxili inteqrasiyaya münasibətində onu keçmiş mövzu ilə yeni mövzu arasında əlaqənin yaradılması kimi xarakterizə edir. Bu mərhələnin xüsusi diqqət tələb etdiyini, yeni biliklərlə keçmiş biliklər arasında rabitə düzgün yaradılmazsa, o zaman dərslər arasında varislik prinsipinin pozulacağını qeyd. Alimin düşüncəsinə görə mövzulararası əlaqə aşağıdakı məzmunda özünü göstərə bilər:

*"a) Əsərlərdə əksini tapan zaman və dövrün oxşarlığına görə;*

*b) Əsərlərin qaldırdığı mövzu və ideya yaxınlığına görə;*

*c) Əsərlərdə təsvir olunan hadisələrin oxşarlığına görə;*

*d) Ədəbi janr baxımından bu əlaqələrin yaradılması;*

*e) Sənətkarların ədəbiyyat tariximizdəki rolu və mövqeyinə görə;*

*f) Sənətkarların yaşadıqları dövrə görə;*

*g) Sənətkarların düşüncə tərzlərində əksini tapan oxşarlıqlar əsasında;*

*h) Sənətkarların yaradıcılıqlarındakı oxşarlıqlar əsasında;*

*i) İncəsənət əsərlərinin nümayişi, filmlərdən fraqmentlər, əyani vasitələrdən istifadə ilə əlaqələrin yaradılması;*

*j) Müasirlərinin xatirələrindən istifadə etməklə;*

*k) Şagirdlərin əvvəlki dərsdən aldığı bilik və təəssürat əsasında və s."*

F. Yusifovun fikrincə, keçmiş dərslə yeni dərs arasında əlaqə biliklərin qavranılmasında davamlılığı təmin edir, şagirdlərin ədəbi və həyati biliklərinin mükəmməlliyinə şərait yardır. Alim qeyd edir ki, "*Bu əlaqələrin necə yaradılması hesabına yeni dərsin taleyi həll olunur. Bu bağlılıq nə dərəcədə mükəmməl və sərrast qurularsa, yeni dərsin izahında qarşıya qoyulan məqsədə bir o qədər də yaxın düşülər. Mövzulararası əlaqə pedaqoji, psixoloji, estetik, metodiki və elmi baxımdan düzgün qurulmalıdır. O, şagirdin marağını yeni mövzunun üzərində cəmləşdirməyi bacarmalıdır. Şagird bu əlaqədən yeni mövzunun başlanmasına elmi və emosional dəstək almalıdır*". [15, s. 93].

B.A. Həsənli "Ədəbiyyatın tədrisi metodikası" kitabında fəndaxili əlaqə barədə yazır: *"Ədəbiyyat təlimində fəndaxili əlaqənin yaradılması – şagirdlərin eyni sinifdə və müxtəlif siniflərdə söz sənəti üzrə əldə etdiyi biliklərin, bacarıqların əlaqələndirilməsinin aşağıdakı imkanlarını qeyd etmək olar:*

*1.Mövzu, problem, janr baxımdan bir-biri ilə səsləşən əsərlərin əlaqəli öyrənilməsi;*

*2. Ayrı-ayrı siniflərdə sənətkarların həyat və yaradıcılığı üzrə mənimsənilmiş biliklərin əlaqələndirilməsi;*

*3. Ədəbiyyat nəzəriyyəsi üzrə bilik və bacarıqların əlaqələndirilməsi;*

*4. Şifahi və yazılı nitq bacarıqlarının əlaqələndirilməsi;*

*5. Bədii əsərlərin öyrənilməsi, təhlili, qiymətləndirilməsi üzrə bacarıqların əlaqələndirilməsi."* [5, s. 243].

S. Hüseynoğlu "Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim" kitabında ənənəvi təlim və fəal/interaktiv təlim arasında fərqləri açıqlayan zaman inteqrasiyaya diqqəti yönəldir. Fəal/interaktiv dərsin başlıca xüsusiyyətlərini və təşkili məsələlərini izah edərkən müəllimlərin bu mövzuda metodik tövsiyələrə, nümunə dərslərinə böyük ehtiyacının olmasını vurğulayaraq tərcümeyi-hal materiallarının öyrədilməsində, epik, lirik və dramatik əsərlərin, icmal materialların tədrisində inteqrasiyanın nəzərə alınmasının vacibliyini qeyd edir. [6, s 56].

Qeyd etmək lazımdır ki, elmi ədəbiyyatda inteqrasiyanı hansı pedaqoji kateqoriyaya aid edilməsi barədə vahid fikir yoxdur. Bir çox pedaqoqlar inteqrasiyanı fənlərin tədris prosesində zəruri və mütləq olan didaktik prinsip hesab edirlər. E. Kuzevanovanın fikrincə, inteqrasiya *"müasir təhsil sistemlərinin inkişaf prinsipləri və amilidir"* [8, s. 52-53].

Bizim tədqiqatımıza gəldikdə isə, biz təhsilin ümumi konsepsiyasına əsaslanaraq inteqrasiyanı təlim prinsipi kimi nəzərdən keçiririk. Onun növlərini, istiqamətlərini, səviyyələrini ədəbiyyatın tədrisinə uyğunlaşdırır, xüsusi tətbiq modelləri verməyə çalışırıq.

Mövcud problem müvafiq olaraq müxtəlif jurnal və qəzet məqalələrində də araşdırılmışdır. Xüsusilə, son illərdə mətbuatda kifayət qədər bu məsələ işıqlandırılmışdır. Onlardan bəzilərinə nəzər salaq.

A. Əhmədov və Ə. Abbasov inteqrasiyanı ümumi təhsilə qlobal yanaşma kimi dəyərləndirir. Məqalədə gələcəkdə inteqrativ fənlərin yaranacağını və buna uyğun olaraq inteqrativ proqram və dərsliklərin yaranması zərurətinin meydana çıxacağı vurğulanır. Daha çox fəndaxili və fənlərarası inteqrasiya üzərində dayanılır. Oxşar fənlərin birləşdirilməsi Azərbaycan dili və ədəbiyyat fənlərinin icbari təhsildə eyni ad altında tədris olunması təklifi irəli sürülür [1].

Belə aydın olur ki, fənlərarası inteqrasiya iki və ya daha artıq fənnin əhatə etdiyi anlayış, bilik, prinsip və s. sintezidir. Bu inteqrasiya bir fənnə aid olan qanun, nəzəriyyə və metodların başqa bir fənnin öyrədilməsində istifadəsini nəzərdə tutur. Məzmunun bu modelə uyğun sistemləşdirilməsi şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazının yaradılması ilə yanaşı, həm də ümumelmi anlayışlar, kateqoriyalar və yanaşmalarla xarakterizə olunan yeni tip biliklərin formalaşdırılmasına təkan verir.

**Problemin aktuallığı.** Respublikamızda ədəbiyyatın tədrisində fənlərarası inteqrasiyadan istifadə problemi üzrə tədqiqatlar az aparılmışdır. Bu sahədə dissertasiyaların və məqalələrin işlənməsinə ehtiyac vardır.

**Problemin yeniliyi.** Ədəbiyyatın tədrisində fənlərarası inteqrasiyadan istifadə problemi üzrə araşdırmanın aparılması mövcud vəziyyət barədə təsəvvür yaradılır.

**Problemin praktik əhəmiyyəti.** Ədəbiyyatın tədrisində inteqrasiyadan istifadə edən müəllim və pedaqoqlara əməli kömək göstərəcəkdir.

**Ədəbiyyat:**


1. Əhmədov, A.Ə. Ümumtəhsildə inteqrasiya: müasir yanaşmalar // A.Ə. Əhmədov, Ə.M. Abbasov. – Bakı: Kurikulum, – 2013. № 2, – s. 7-9.
2. Əhmədov, B.A. Fənlərarası əlaqədən istifadənin didaktik şərtləri // – Bakı: Azərbaycan məktəbi, – 1985. № 8, – s. 49-53.
3. Əhmədov, H.H. Pedaqogika / H.H. Əhmədov. – Bakı: ABU, – 2006. – 296 s.
4. Əliyeva, T.M. Fənlərarası əlaqələr pedaqoji sistem kimi // – Bakı: Pedaqoji Universitet Xəbərləri, – 2001. № 3, – s. 138-143.
5. Həsənli, B.A. Ədəbiyyatın tədrisi metodikası. Pedaqoji ali məktəblər üçün dərs vəsaiti / B.A. Həsənli. – Bakı: Müəllim. – 2011. – 326 s.
6. Hüseynoğlu, S.H. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal / interaktiv təlim / S.H. Hüseynoğlu. – Bakı: Bakı, – 2009. – 200 s.
7. Kazımov, N.M. Məktəb pedaqogikası. Dərslik. / N.M. Kazımov. – Bakı: Çıraq, – 2011. – 440 s.
8. Кузеванова, Е.В. Организация интегрированного обучения общеобразовательской школы. // – Новосибирск: Сибирский учитель, научно-методический журнал, – 2006. № 3, – с. 31-34.
9. Mehdiyeva S.N. Orta məktəblərdə biologiyanın tədrisində inteqrasiya və onun mahiyyəti. // – Bakı: Pedaqoji Universitet xəbərləri, – 2014. № 2, – s. 21-25.
10. Mehdizadə, M.M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları / M.M. Mehdizadə. – Bakı: Maarif, – 1982. – 384 s.
11. Mikayılov, Ş.A. Ədəbiyyat dərslərində inteqrasiyadan istifadə imkanları / Ş.A. Mikayılov, A.M. Bəkirova, Ş.X. Əliyeva. – Bakı: Zaman, – 2010. – 247 s.
12. Rəhimov, A.N. Ana dilinin tədrisi metodikası / A.N. Rəhimov. – Bakı: Mütərcim, – 1997. – 434 s.
13. Rüstəmov, F.A. Ali məktəb pedaqogikası. Magistratura pilləsi üçün dərslik. F.A. Rüstəmov, T.Y. Dadaşova. – Bakı: Nurlan, – 2007. – 568 s.
14. Xəlilov, S.D. Fənlərarası əlaqənin məzmununa müxtəlif elmi yanaşmalar // – Bakı: ARTPİ-nin Elmi əsərləri, – 2008. № 4, – s. 219-221.
15. Yusifov, F.A. Ədəbiyyatın tədrisi metodikası. Ali məktəblərin filologiya fakültəsi bakalavriat təhsil səviyyəsi tələbələri üçün dərslik. / F.A. Yusifov. – Bakı: Kür, – 2017. – 304 s.


**E-mail:** sevil_yusifova@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **P.B. Əliyev**
*ped.ü.fəls.dok.* **İ.B. Əmirəliyeva**
**Redaksiyaya daxil olub:** 31.01.2024